# Biznes mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Səhiyyə sistemi" işçi qrupunun 20-ci iclası

Protokol № 20

Bakı şəhəri 28 avqust, 2026-cı il

İşçi qrupun tərkibi: 16 nəfər

İclasın sədri: **İşçi qrupun rəhbəri: Rasim İsmayılov, nazir müavini**

İştirak edirdilər:

**İşçi qrupun üzvləri:**

***Qəhrəman Haqverdiyev,*** Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktor müavini

***Nərminə Rzayeva,*** Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinin Tibbi sığorta iqtisadiyyatı departamentinin Tibbi xidmət ehtiyaclarının strateji təhlili və planlanması şöbəsinin müdiri

***Validə Sadıxova,*** Qida Təhlükəsizliyi Agentliyinin Qida təhlükəsizliyi şöbəsinin müdiri

***Səkinə Qurbanova,*** Həssas əhali qrupları ilə iş departamenti, Dövlət proqramları şöbəsinin müdiri

***Hüseyn Hacıyev***, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin müdir müavini

***Səmayə İbrahimova,*** Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Aparatının Tibbi xidmətin təşkili şöbəsinin müdiri

***Kamilə Əliyeva***, Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ailə məsələləri şöbəsinin müdir müavini

***Xalid Balakişiyev***, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin Koordinasiya və təhlil sektorunun müdiri

***Sevinc Cabbarova***, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Monitorinq və qiymətləndirmə şöbəsinin aparıcı məsləhətçisi

***Telman Əliyev,*** "Caspian Energy Club"un Sədri və qrupun Baş icraçı direktoru

**İştirak etmədi:**

***Nərmin Fətəliyeva,*** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İcbari tibbi sığorta siyasəti və tibbi-sosial ekspertiza şöbəsinin Tibbi xidmətlərin təminatı sektorunun müdiri,

***Rza Allahverdiyev,*** Dövlət Statistika Komitəsinin Əhali statistikası şöbəsinin müdiri

***Gülüstan Cəfərova***, Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil şöbəsinin Monitorinq və qiymətləndirmə sektorunun müdiri vəzifəsini icra edən

***Günel Quliyeva***,"Caspian Energy Club International"ın İdarəedici direktoru

**İşçi qrupun katibi** : ***Könül İsmayılova***, "Səhiyyə sistemi" işçi qrupunun katibi, Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin baş məsləhətçisi

**Dəvət olunanlar:** ***Vüsal Şıxəliyev,*** Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri

## İCLASIN GÜNDƏLİYİ

"Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı əsasında yaradılan Komissiyanın fəaliyyət istiqamətləri barədə məlumat verilmiş və aşağıdakı digər məsələlər müzakirə edilmişdir:

- ✓ Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində mövcud çətinliklər;

- ✓ İSİM tərəfindən hazırlanmış elektron resurslar barədə məlumatlar;
- ✓ İşçi qrupun 6 aylıq fealiyyətinin təhlili;

**Çıxışlar:** İşçi qrupun rəhbəri, səhiyyə nazirinin müavini *Rasim İsmayılov* "Səhiyyə sistemi" işçi qrupunun iclasını açıq elan edərək iclas iştirakçılarını və dəvət olunmuş qonaqları salamladıqdan sonra işçi qrupun gündəliyində müzakirəyə çıxarılacaq məsələlər barədə qısa məlumat vermişdir.

Komissiya Katibliyinin rəhbəri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri *Vüsal Şıxəliyev* 2026-cı il üzrə Fəaliyyət Planında qeyd olunan tədbirlərin geniş, əhatəli olduğunu qeyd etmiş, bu tədbirlərin icrasının diqqətə saxlanıldığı üçün Komissiyanın sədri, nazir müavini R. İsmayılova dərin təşəkkürünü bildirmişdir. O, "Fəaliyyət Planı"nda uşaqların psixi sağlamlığı, həmçinin sağlam qidalanması və fiziki inkişafı ilə bağlı tədbirlərə daha çox yer ayrılmasını müsbət addım kimi dəyərləndirmiş, İşçi qrupun sədrinə təşəkkürünü bildirmişdir.

İşçi qrupun gündəliyinə müvafiq olaraq, *Rasim İsmayılov* sözü işçi qrupun üzvü, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Aparatının Tibbi xidmətin təşkili şöbəsinin müdiri *Səmayə İbrahimovaya vermişdir.* R.İsmayılov təqdimatdan əvvəl Möhtərəm cənab Prezident İlham Əliyevin və birinci xanım hörmətli Mehriban Əliyevanın avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfərini vurğulamış, Naxçıvanın sosial-iqtisadi yüksəlişini və ölkənin ümumi inkişaf sisteminə tam inteqrasiyasının hər zaman ölkə başçısının diqqət mərkəzində saxladığını qeyd etmişdir.

Bundan sonra Naxçıvan Muxtar Respublikasında tibbi xidmətin təşkilində mövcud çətinliklər, kadr çatışmazlıqları və s. barədə məlumatları əhatə edən təqdimatla işçi qrupun üzvü, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Aparatının Tibbi xidmətin təşkili şöbəsinin müdiri *Səmayə İbrahimova* çıxış etmişdir. Nazir müavini R. İsmayılov S. İbrahimovanın çıxışına münasibət bildirərək, növbəti iclasda qeyd olunmuş problemlərin daha əhatəli və detallı ifadə olunmuş statistik göstəriciləri ilə bağlı məlumatların Komissiyanın Katibinə təqdim edilməsini tapşırmışdır.

Növbəti çıxışda Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Baş direktorunun müavini Qəhrəman Haqverdiyev tərəfindən İSİM tərəfindən hazırlanmış elektron resurslar barədə məlumatlar barədə məlumat vermişdir. Q.Haqverdiyev İSİM tərəfindən

hazırlanmış elektron resurslar və onların dinamikası, baxış sayı və digər göstəriciləri əks etdirən məlumatları iclas iştirakçılarının diqqətinə çatdırmışdır.

Komissiya Katibliyinin rəhbəri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri V.Şıxəliyev Q. Haqverdiyevin çıxışına əlavə olaraq qeyd etmişdir ki, bu ilin əvvəlində möhtərəm cənab Prezidentin tapşırığına əsasən, Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi, həmçinin bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədilə Rəqəmsal İnkişaf Şurası yaradılmışdır. O, həmçinin Tibbi Rəqəmsal Əkiz Sistemi barədə məlumatlar, eyni zamanda bu mövzu ilə bağlı təqdimat edilməsinin vacibliyini qeyd etmişdir.

Bundan irəli gələrək, Sədr, nazir müavini R.İsmayılov elektron resurslarla bağlı ilin sonunda təqdim ediləcək yekun Hesabatda Komissiya üzvlərinin təmsil etdiyi qurumlar tərəfindən hazırlanmış mobil tətbiqlər barədə məlumatların qeyd edilməsini tapşırmışdır.

Sonda İqtisadi İslahatların Təhlili Kommunikasiya Mərkəzinin Monitorinq və qiymətləndirmə şöbəsinin aparıcı məsləhətçisi *Sevinc Cabbarova,* işçi qrup üzvlərinin fəaliyyətinin təhlilini təqdim etmiş, qurumlar tərəfindən hazırlanmış Hesabatlara dair tövsiyə xarakterli təkliflərini qeyd etmişdir.

İclasın yekununda nazir müavini *Rasim İsmayılov* Komissiya Katibliyinin rəhbəri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri Vüsal Şıxəliyevə və digər üzvlərə öz dərin təşəkkürünü bildirmiş və işçi qrupun üzvlərinə növbəti görüşə qədər icra olunacaq məsələlər barədə müvafiq tapşırıqlar vermişdir.

**QƏRARA ALINDI:**

1. 2026-cı il üzrə Fəaliyyət Planı əsasında ilin sonunda hazırlanacaq yekun Hesabatda qurumlar tərəfindən hazırlanmış mobil tətbiqlər, elektron resurslar barədə məlumat təqdim olunsun (K. İsmayılova və bütün üzvlər).

2. Naxçıvan Muxtar Respublikasında tibbi xidmətin təşkilində kadr çatışmazlığı (müvafiq olaraq hər ixtisas üzrə çatışmayan kadrların sayı) və digər zəruri məsələlər barədə dəqiq statistik məlumatlar, həmçinin sertifikasiya, rezidentura ilə bağlı yaranmış çətinliklər barədə məruzə hazırlanaraq təqdim edilsin (S. İbrahimova).
3. Naxçıvan Muxtar Respublikasında tibbi xidmətin təşkilində maddi-texniki təchizat barədə (mövcud avadanlıqlar, onların işləmə vəziyyəti və s.) məlumat təqdim edilsin.
4. Ölkədə dərman istehsalı sahəsində mövcud istehsalçılar barədə hesabat təqdim edilsin (X. Balakişiyev).
5. Tibbi Rəqəmsal Əkiz Sistemi (TRƏS), o cümlədən TRƏS-ə dair mövcud vəziyyəti əks etdirən məlumatlar barədə növbəti iclasda təqdimat hazırlansın (K.İsmayılova, Rəqəmsal Səhiyyə Mərkəzi).
6. İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzi tərəfindən təqdim olunmuş məlumatların nəticələri barədə işçi qaydada görüş təşkil edilsin (K.İsmayılova, S.Cabbarova).
7. Növbəti iclasadək Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin aidiyyəti nümayəndələri ilə əməkdaşlıq imkanlarının müzakirəsi ilə bağlı işçi qaydada görüş təşkil edilsin, həmçinin, növbəti görüşdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən nümayəndə dəvət olunsun (K.İsmayılova).
8. İclasda təqdim olunmuş məlumatlar işçi qaydada Komissiyanın Katibliyinə təqdim edilsin (K. İsmayılova, aidiyyəti üzvlər).
9. Protokolda qeyd olunan müvafiq bəndlər üzrə işçi qrupun katibi tərəfindən işçi qrupun üzvlərinin məlumatlandırılması, bu sahədə koordinasiyanın aparılması və tədbirlərin icrasına dair hesabatların işçi qrupun üzvlərinə təqdim olunması, müzakirəsinin təşkili və işçi qrupun rəhbərinə və Komissiyanın Katibliyinə təqdim edilməsi təmin olunsun (K. İsmayılova).
10. İşçi qrupunun iclasının protokolu katib tərəfindən tərtib olunduqdan və işçi qrupunun rəhbəri ilə razılaşdırıldıqdan sonra Komissiyanın Katibliyinə təqdim olunsun (K. İsmayılova).

**İclasın sədri:** ____________________ **Rasim İsmayılov**

**İclasın katibi:** ____________________ **Könül İsmayılova**